**CƏVAHİR QƏHRƏMANOVA**
**BDU-nun Qazax filialının müəllimi**
**Qazax rayonu, Qazax şəhəri, Azadlıq küçəsi 78**
**qehremanova.c@mail.ru**

# XX ƏSRIN ƏVVƏLƏRINDƏ AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI

**Xülasə**

Uşaq ədəbiyyatı ədbiyyatın ayrılmaz tərkib hissəsidir. Onun obyektini uşaqlara təşkil etmişdir. Uşaq ədəbiyyatının başlıca məqsədi uşaqların mənəvi təkamülünə nail olmaqdır. Bu mövzuda yazan sənətkar uşağın daxili dünyasının incəliklərini bilməlidir. O, həyat yolunun ilk bələdçisi kimi uşağa həyat yolundakı doğru istiqamət göstərməlidir. Bu ədəbiyyata müraciət edən sənətkar seçdiyi mövzuya xüsusi diqqət yetirməlidir. Ümumiyyətlə, məna gözəlliyi həmin dövrün şeirləri üçün başlıca prinsip hesab edilirdi. Uşaq ədəbiyyatının təkcə mündəricəsi deyil, eləcə də dil üslub xüsusiyyətləri də nəzərə alınmalıdır. Belə ki, yazılan əsərlərin dili səlis, aydın, rəvan olmalı, uşaqlar tərəfindən aydın şəkildə dərk edilməlidir. Azərbaycan ədəbiyyatında isə uşaq mövzularına hələ şifahi xalq ədəbiyyatının bir çox növlərində müraciət olunmuşdur. XIX əsrin sonlarından etibarən isə Azərbaycanda uşaq ədəbiyyatına fərqli mövqedən yanaşılmışdır. Bu dövrdə daha çox dərslik tipli vəsaitlər hazırlanmışdır. 20- ci əsrin əvvəllərində isə M.Ə Sabirin, A.Səhhətin, A.Şaiqin və digərlərinin yaradıcılıqlarında uşaq ədəbiyyatının əvəzsiz nümunələri yarnmışdır. Onların “Uşaq və buz”, “Qərənfil”, “Keçi”, “Dovşan” kimi şeirləri özlərində uşaqlara aid ən həssas duyğuları, düşüncələri, bədii estetik zövqləri özlərində cəmləyir. Bu şeirlərin başlıca xüsusiyyəti, sadə, anlaşıqlı dildə yazılmış olması və şairin həyata uşaqların gözündən baxmasıdır.

Açar sözlər: uşaq ədəbiyyatı, poetik ifadə, məzmun.

Uşaq ədəbiyyatı bədii ədəbiyyatın tərkib hissələrindən biri olub, onun digər nümunələrindən özünəməxsus xüsusiyyətlərinə görə fərqlənir. Belə ki, bu ədəbiyyatın əsas obyektini uşaqlar təşkil etmiş, onların duyğu və düşüncələrini, hisslərini, xəyallarını poetik ifadələrlə obrazlı şəkildə özündə ehtiva etmişdir. Uşaq ədəbiyyatının qarşısında duran başlıca məqsəd uşaqlarda nəcib insani duyğular yaratmaq, mənəvi aləmlərini zənginləşdirmək, gözəl estetik zövq formalaşdırmaqdan ibarətdir. Bu mövzuda yazan sənətkar uşağın daxili dünyasının incəliklərini bilməli, həyat yolunun ilk bələdçisi kimi uşağa həyat yolundakı doğru istiqamət göstərməlidir. Sənətkar öz oxucusunu göz önünə gətirdikdə kiçik yaşlı uşaq deyil, ən ümdə insani xüsusiyyətləri özündə cəmləyən bir varlıq görməlidir. Səməd Vurğun “Balalarımız üçün gözəl əsərlər yaradaq” adlı silsilə məqaləsində yazır:

“Uşaq insandır! Onun sadə görünən oynaq, daima xoşbəxt və azad təbiətində böyük insanların bütün xassələri mövcuddur. Düşünmək, duymaq, sevmək... xəyala dalmaq, ümid və arzulara bağlanmaq, yaxşılıq, hörmət- bütün insan xassələri uşaq aləmində mövcuddur. Demək istəyirəm ki, biz uşaqla danışdığımız zaman insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman insan üçün yazdığımızı unutmamalıyıq” (4, 139)

Göründüyü kimi uşaq ədəbiyyatında başlıca problemlərdən biri şairin nədən, hansı mövzudan yazmasıdır. Əsərin ideyası, mövzusu oxucunun bədii zövqünü formalaşdırmaqla yanaşı, onun bir şəxsiyyət kimi formalaşmasına, kamil insan olmasına yardımcı olan baçlıca amillərdən biri hesab olunur. Məsələn, Ə.Xaqaninin “Gənclərə Nəsihət”, N.Gəncəvinin “Sirlər Xəzinəsi” poemasından “Sultan Səncər və qarı” hekayəsi, “Kərpickəsən qocanın hekayəsi”, N.Tusinin “Əxlaqi Nasir”, A.Bakıxanovun “Təhzibül Əxlaq” kimi didaktik xarakterli əsərlərində başlıca məqsəd kiçik yaşlarından uşaqlara nəsihət verərək düzgün yolu onlara göstərməkdən ibarət idi. Lakin bu əsərlər bütün oxucular tərəfindən eyni şəkildə dərk edilmir. Buna görə də sənətkar hər zaman əsərin ideyasını qoyarkən, mövzunu işləyərkən uşaqların yaş xüsusiyyətlərini nəzərə almalıdır. “İdeya-idraki funksiya uşaq ədəbiyyatının başlıca funksiyasıdır” (1, 65 ). M.Qorki yaş xüsusiyyətləri nəzərə alınmayan bədii nümunələri üzərinə ünvan yazılmamış poçt qutusuna bənzətmişdir.

Uşaq ədəbiyyatında yaş xüsusiyyətləri pedaqoji təlimlər nəzərə alınmaqla 4 qrupa ayrılır: 1) bağça yaşlı uşaqlar: 3-6 yaşlılar. 2) kiçik məktəblilər: 6- 10 yaşlılar 3) orta yaşlı məktəblilər: 10-15 yaşlılar 4) yeniyetmələr: 15-17 yaşlılar. Yeniyetmələrin sonuncu yaş pilləsi bəzən 15, bəzən isə 18 yaş olaraq götürülmüşdür. Qara Namazov "Azərbaycan uşaq ədəbiyyatı"nda isə qeyd etmişdir: "Uşaq ədəbiyyatı məqsəd və vəzifəsinə görə 17 yaşına qədər müxtəlif oxucu qruplarının təlim, təhsil və əxlaqi estetik tərbiyəsinə yönəldilən bədii əsərlərə deyilir" (2, 5). Ümumiyyətlə, uşaq ədəbiyyatının 17 yaşa qədər götürülməsi məqbuldur, çünki 18 yaşından etibarən onlara azadlıq verilir və öz haqlarından qanun çərçivəsində müstəqil şəkildə istifadə etmələrinə icazə verilir.

Uşaq ədəbiyyatının təkcə məndəricəsi deyil, eləcə də dil üslub xüsusiyyətləri də nəzərə alınmalıdır. Belə ki, yazılan əsərlərin dili səlis, aydın, rəvan olmalı, uşaqlar tərəfindən aydın şəkildə dərk edilməlidir. Bu gün bəzi yaş qrupu uşaqlar Nizami, Füzuli tərəfindən yazılan əsərləri oxumaqda müəyyən çətinliklər çəkirlər. Lakin müasir dövrü nəzərə almaqla yazan sənətkar bilməlidir ki, o ilk öncə ana dilinin öz oxucularına sevdirməli, onun incəliklərini, sadəliyini onlara çatdırmalı, uşaqların söz ehtiyatlarını zənginləşdirməlidir. Sözlərin poetikası, obrazlılığı bədii təsvirin əlvanlığı sadəlik prinsipi əsasında yaradılmalı və nəzərə alınmalıdır ki, bədii nümunələr vasitəsilə oxucuda şüurlu oxuma vərdişi yaranır.

Uşaq ədəbiyyatın tarixi də müzakirəli mövzu olmuşdur. 17 və18- ci əsrlərdə Avropa ədəbiyyatında Çarliz Perraultnın "Yatmış Gözəl", "Qırmızı papaq", "Çəkməli pişik" adlı kitabları, Daniel Defoenun "Robinzon Kruz", Jonathan Sviftin "Qulliver" kimi əsərlərin yazılmasına baxmayaraq, uşaq ədəbiyyatının sistemli şəkildə inkişafı Aydınlanma dövrünə, 19- cu əsrin sonu 20- ci əsrin əvəllərinə təsadüf edir. Bu vaxta qədər yazılan ədəbi nümunələr isə didaktik əsərlər kimi qiymətləndirilirdi. Əvvəlki illərdə yazılan nümunələr daha çox siyasətin və dinin tələblərinə cavab verən insan fiqurlarının yaradılmasını öz öhdəsinə götürmüşdür. 20- ci əsrin əvvələrindən etibarən isə Avropada uşaq ədəbiyyatının qarşısına yeni tələblər qoyuldu. İlk öncə, yazılan əsərlər yığcamlığı və dilinin sadəliyi ilə digər ədəbi nümunələrdən fərqlənməli, nəsihətçilikdən uzaq olmalı, uşaqları əyləndirməklə yanaşı düşündürməyi də bacarmalı idi. Bu cəhətləri nəzərə alaraq artıq 20- ci əsrdən etibarən E.M.Blitonun "Gizli yeddilər", Mark Tveynin "Tom Sauyer", Frances Burnetin "Balaca Şahzadə" kimi əsərlərində kiçik uşaq dünyaları fəqli rakurslardan, obrazlı, əyani və canlı şəkildə təsvir olunurdu.

Azərbaycan ədəbiyyatında isə uşaq mövzularına hələ şifahi xalq ədəbiyyatının növləri olan tapmacalar, nəğmələr, xalq oyunları, yanıltmaclar, atalar sözləri və məsəllərdə müraciət olunmuşdur. F.Köçərli tapmacalar haqqında qeyd etmişdir ki, uşaqlar üçün yaradılmış kiçik həcmli folklor nümunələrində təsvir olunan əşyaların xarakterik xüsusiyyətləri sadalanmaqla yanaşı, uşaqların zehnini, şüurunu inkişaf etdirir. "Tapmacanın sualı, mahiyyəti, fikrin metaforik tərzdə ifadəsi, mövzu dairəsinin uşaq ruhuna yaxınlığı, kollektiv ünsiyyət məhsulu olması və həm də oyun xarakteri daşıması onu uşaqlar üçün cazibədar edir"(2, 76). Bundan sonra klassiklərimizin- Ə.Xaqaniin "Gənclərə nəsihət", Nizaminin "Sirlər xəzinəsi" poemasında "Yaralı uşağın dastanı", "Kərpickəsən qocanın hekayəsi", Nəsrəddin Tusinin "Əxlaqi nasir", Füzulinin "Söhbətül Əsmar" A.Bakıxanovun "Təhzibül əxlaq"və s . kimi əsərlərində uşaqların bir şəxsiyyət kimi formalaşmasına təsir edən başlıca xüsusiyyətlər təhlil olunmuş, daha çox onlara gələcək həyatları ilə bağlı ibrətamiz öyüdlər verilmişdir.

XIX əsrin sonlarından etibarən isə Azərbaycanda uşaq ədəbiyyatına fərqli mövqedən yanaşılmış, daha çox dərslik tipli vəsaitlər hazırlanmışdır. Bunun başlıca səbəblərindən biri isə həmin dövrdə yeni üsullu məktəblərin yaradılması. Bu məktəblərə uyğun A.Çernaşevskinin yazdığı "Vətən dili", R.Əfəndiyevin "Uşaq bağçası", A.Şaiqin "Uşaq gözlüyü", "Gülzar", kimi dərsliklərində təlim və tərbiyə vəhdət şəklində götürülmüş, uşaqlara ilkin olaraq dünyagörüşü, həyat hadisələri ilə bağlı aydın və dəqiq məlumat verilmişdir. Bu vəsaitlərdə ən mühüm cəhət dil üslub xüsusiyyətlərinə xüsusilə nəzər yetirilməsi, aydın dildə yazılması və ana dilinin uşaqlara sevdirilməsi idi. F.Köçərli özünün "Ana dili" adlı məqaləsində bu xüsusiyyətləri nəzərə alaraq yazırdı: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusu malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir... Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir" (2, 86). Yazıçı 1912- ci ildə "Balalara hədiyyə" adlı dərsliyini hazırlamış və onu digər vəsaitlərdən fərqli

formada oxucularına təqdim etmişdir. Buradakı hekayələr öz qayəsini folklor nümunələrindən almış, həyat hadisələrini əyani şəkildə, bədii ifadələrlə təsvir edilmişdir. Məhz bu cəhəti nəzərə alaraq Seyid Hüseyn yazırdı: "Hərçənd bu kitab zahirdə uşaqlar üçün yazılmışdırsa da, lakin bütün ənənəyi- milliyyəsi... nağıl və hekayələri,...milli misal və nəömələri, uşaqlara məxsus oyuncaqları tərtib etdiyindən bizi keçmişimizlə aşina edir... Keçmişimizə qarşı bizdə milli duyğu oyandırır..."

Lakin bütün bu xusiyyətləri nəzərə alaraq qeyd etməliyik ki, Azərbaycan ədəbiyyatında uşaq ədəbiyyatının xüsusi bir forma kimi inkişafı Abdulla Şaiqin adı ilə bağlıdır. O, 1911- ci ildə uşaqlar üçün "Gözəl Bahar" adlı ilk alleqorik səhnə əsərini yazmış, bunun ardınca "Danışan kukla", "İntiqamçı xoruz", "Eloğlu", "Vətən", "Bir saatlıq xəlifə" pyeslərini yazmış və əsərlərin mövzusunu nağıl və hekayələrdən götürmüşdür.

"Ananın oğula layla" deməsi adlı ilk şeirini isə Dəbistan jurnalında çap etdirmiş, 1906- 1908 ci illərdə "Xoruz", "Keçi", "Yeni köməkçi", "Layla", "Çoban mahnısı", "Səhər", "Təpəl Kəlim", "Bir quş", "Çütçü", "Payız" kimi tərbiyəvi əhəmiyyət kəsb edən şeirlərini qələmə almışdır. Bu şeirlərin başlıca xüsusiyyəti, sadə, anlaşıqlı dildə yazılmış olması və şairin həyata uşaqların gözündən baxması və əşyaları, hadisələrin izahatını onların dərk edə biləcəyi şəkildə vermiş olmasıdır.

**Qərənfiləm mən,**
**Gözəl güləm mən;**
**Yaşıl saplaqlı**
**Bir sünbüləm mən.**

"Qərənfil" şeirində şair qərənfilin surətini ən incə poetik boyalarla, emosionallıqla təsvir etmiş, uşaqlar gül haqqında canlı təsvvür yaratmışdır. Abdulla Şaiq "öz əsərlərində uşaq təbiətinin zəruri tələbindən doğan əyanilik prinsipinə, canlılıq konkretlilik, inandırıcılıq xüsusiyyətlərinə ciddi əməl edirdi"(2, 132)

Şair "Bahar", "Payız", "Payızın son gecəsi" "Ana yurdu" "Vətən nəğməsi", "Vətən" kimi şeirlərində canlı peyzajlar, təbiət lövhələri yaratmaqla bərabər, vətəni oxucularına daha yaxından tanıtdırmışdır.

Çöllərində şən,
Hər yerin gülşən.
Sən nə gözəlsən,
Ey ana Vətən! (1, 72)

"Ana yurdu" şeirindən götürülmüş bu kiçik hissəni təhlil edib görərik ki, şair sadə obrazlı ifadələrlə, yüksək emosionallıqla vətənpərvərlik duyğularını öz oxucularına aşılayır. Bu kimi şeirlərdə vətənə qarşı böyük məhəbbət, həssaslıq aydın şəkildə duyulur və uşaqların yaddaşlarına həkk olunur.

Abdulla Şaiqin "Məktəbdə", "Məktəbə təğrib", "Oyan oğlum" kimi şeirlərində məktəbə, təhsilə olan sevgi təsvir olunmuş, bütün qaranlıq yollara məhz elmin çıraq olduğu göstərilmişdir.

Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.
Al şəfəqli günəş var,
Pəncərədən parıldar (1, 71)

Mirzə Ələkbər Sabir də "Məktəbə təğrib" adlı şeir yazmış, o da təhsil, elm haqqında düçüncələrini, ən munis duyğularını obrazlı şəkildə təsvir etmişdir. Ümumiyyətlə, məktəb mövzusu M. Hadinin "Məktəb şərqisi", "Qızlar bulağı", "Məktəb", Əli Nəzminin "Məktəb uşağı", "Çalışqan Cəmal", Abbasağa Nazir Qayıbzadənin "Məktəb", Ə.Cavadın "Müəllim", H.Cavidin "Qız məktəbində" və digər sənətkarların yaradıcılıqlarında tez- tez işıqlandırılır, elm haqqında düşüncələrini öz qəlblərindən gələn poetik sözlərlə ifadə etmiş, cəhalət və avamlıq dünyasının məhv edilməsinə qarşı ən böyük silah kimi təsvir edilmişdir. Bu mövzuya müraciət olunmasının digər səbəblərindən biri avamlıq əleyhinə mübarizə idisə, digəri həmin dövrdə surətlə yeni üsullu məktəblərin açılması idi. Bu Təhsil ocaqları şagirdlərin ana dilində tədris almasına çalışmaqla yanaşı, qızlarıda elmə, təhsilə cəlb etməyə, valideynləri cəhalət yuxusundan ayıdıb, övladlarına gözəl gələcək bəxş etmələrinə səy göstərirdilər. Dövri mətbuat da bu ideyaların gerçəkləşməsinə yardım etmiş, sənətkarların elm uğrundakı qələm döyüşlərində onlara dəstək olmuşdular.

"Dəbistan", "Rəhbər", "Məktəb" kimi məcmuələrdə bədii nümunələr tez-tez işıqlanıdırılır, təbliğ olunurdu. "Dəbistan" jurnalında A. Bakıxanov yeni məktəbləri mollaxanlar ilə müqayisə edir, onlarda tətqbiq olunan cəza üsullarından səəhnəciklər verirdi. N.Nərimanov isə "Məktəb jurnalının ilk sayında böyük sevinc hissi ilə qeyd edirdi ki, " Şükürlər olsun ki, bu axırıncı illərdə məktəblər artır, camaatda məktəbə az da olsa bir rəğbət, bir ehtiyac hissi oyanır" (2, 92). M.Hadi "Qızlar bulağı", H.Cavid "Qız məktəbində" adlı əsərlərində isə qızları məktəbə səsləyirlər. Bu şeirlərdə artıq müasirləşmə meyilləri özünü göstərir və təhsilli qızların obrazları sadə, səliqəli mübaliğəsiz formada təsvir olunmuşdur.

Qeyd etdiyimiz kimi M.Ə.Sabir də məktəb mövzusunu xüsusi həssaslıqla yanaşmış, "Məktəbə təğrib" şeirindən başqa "Elmə təğrib", "Məktəb uşaqlarına töhfə" kimi əsərlərində məhz, uşaqların dərk edə bilcəkləri şəkildə məktəb haqqında düşüncələrini poetik dillə ifadə etmişdir.

Mənim bağım, baharım!
Fikri ziyalı oğlum!
Məktəb zamanı gəldi,
Dur, ey vəfalı oğlum!
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!

"Məktəbə təğrib" şeirindən götürülmüş birinci bəndə nəzər yetirsək görərik ki, burada Sabir uşaqlarla necə sadə və həlimli dildə danışdığını və bu misraların necə böyük məna gözəlliyi ilə yükləndiyinin şahidi oluruq. Həmçinin, şairin uşaqlar üçün yazdığı "Uşaq və buz", "Yaz günləri", "Qoca bağban", "Uşaq və pul", "Təbib və xəstə", Çütçü kimi əsərləri mövzu ideyasının rəngarəngliyi, dilinin sadəliyi ilə fərqlənir. "Yalançı Çoban" mənzum hekayəsində qurduğu süjetlə, yaratdığı real poetic lövhələr ilə sanki uşaqlara həyat dərsi verir.

Bax, yalançı tanindi cünki çoban,
Doğru derkən sözü göründüyü yalan.
Hərgiz, oğlum, yalan demə ki, xuda
Dust tutmaz yalançının əbəda!

Göründüyü kimi Sabirin şeirlərində mündəricə ilə həyat hadisələri vəhdət şəklində olur və dərin məna ifadə edir. Ümumiyyətlə, məna gözəlliyi həmin dövrün şeirləri üçün başlıca prinsip hesab edilirdi. S.Vurğun qeyd edirdi ki, "Mənası dayaz, qayə və məqsədi aydın olmayan, ötərgi hisslər və təsirlər tərənnüm edən əsərlər uşağın hafizəsində ani bir qığılcım kimi parlayıb sönür" (4, 139). Sabirin də uşaqlar üçün yazdığı şeirlərində də qəlbinin həqiqətlərini həyatla əlaqələndirib poetik dilin anlaşıqlı sadə forması ilə ifadə etiyinə görə uzunmüddət yadda qalır.

**İstifadə olunmuş ədəbiyyat:**

1.Azərbaycan Uşaq Antologiyası. II cild Bakı: "Öndər", 2004
2.Haciyev Aydın "Azərbaycan uşaq ədəbiyyat tarixi". Bakı: "Təhsil", 2004
3.Namazov Qara "Azərbaycan uşaq ədəbiyyat". Bakı: "Maarif" 1984
4.Vurğun Səməd "Seçilmiş əsərləri" V cild. Bakı: "Şərq- Qərb" 2005

**J.Qahramanova**

**Early 20th century Azerbaijani children's literature**

**Summary**

Children's literature is an integral part of the literature. Its main subject is children. The main purpose of children's literature is to help children's development of moral evolution and formulation

of their personality. The artist who writes on this subject should know the inner world of the child. He/she as the first guide to the life, he/she should show the right direction to the children. The artist who addresses to this literature should pay special attention to the subject he/she chooses to consider. In general, the beauty of meaning was considered to be the principal principle for the poetry of that era. Not only the context of child literature, but also the language style features should be taken into account. Thus, the language of written works should be fuzzy, clear, smooth, and they should be clearly understood by children. In the literature of Azerbaijan, children's issues were addressed to riddles, songs, folk plays, tongue-twisters, proverbs and sayings, as well as oral folk literature. Since the end of the 19th century, Azerbaijan has developed a different approach to children's literature.

In this period mainly manuals such as textbooks were created. At the beginning of the 20th century, in M. Sabir's, A.Sahhat's, A.Shaig's and others' works, invaluable samples of children's literature was created. Their poems such as "Uşaq və buz", "Qərənfil", "Keçi", "Dovşan" contains the children's most sensitive emotions, thoughts and artistic aesthetic pleasures. The main feature of these poems is that it is written in a simple, understandable language, and that the poet views the life from children's perspective.

Key words: children's literature, poetic expression, content

**ДЖ.Гахраманова**

**Детская литература начала 20 века**
**Резюме**

Детская литература является неотъемлемой частью литературы. Его основной предмет - дети. Основная цель детской литературы - помочь детям развить нравственную эволюцию и сформулировать свою личность. Ремесленник,, который пишет на эту тему, должен знать внутренний мир ребенка. Он /она как первый проводник по жизни, он / она должен показывать правильное направление детям. Ремесленник,, который обращается к этой литературе, должен обратить особое внимание на предмет, который он / она выбирает для рассмотрения. Вообще красота смысла считалась главным принципом поэзии той эпохи. Следует учитывать не только контекст детской литературы, но и особенности языкового стиля.

Таким образом, язык письменных работ должен быть нечетким, ясным, гладким, и они должны быть понятны детям. В азербайджанской литературе проблемы детей были адресованы загадкам, песням, народным пьесам, скороговоркам, пословицам и поговоркам, а также устной народной литературе. С конца XIX века в Азербайджане выработался иной подход к детской литературе. В этот период были созданы в основном учебные пособия, такие как учебники. В начале XX в. В работах М. Сабира, А. Саххата, А. Шейга и других созданы бесценные образцы детской литературы. Их стихи, такие как «Uşaq və buz», «Qərənfil», «Keçi», «Dovşan», содержат самые чувствительные эмоции детей, мысли и художественные эстетические удовольствия. Главная особенность этих стихов заключается в том, что они написаны простым и понятным языком и что поэт рассматривает жизнь с точки зрения детей.

Ключевые слова: детская литература, поэтическое выражение, содержание

Redaksiyaya daxil olma tarixi: 1.04.2019
Çapa qəbul olunma tarixi: 16.04.2019
Filologiya üzrə fəlsəfə doktoru İlahə Hacıyeva tərəfindən çapa tövsiyə olunmuşdur.